

ESMİRA GÜNƏŞ

## OLMUŞAM

Buluda bənzəyib qəlbimin teli,
Sənintək gözləri dolan olmuşam.
Elə bil doğrudur dünyada hər kəs,
Bir tək mən dünyaya yalan olmuşam.

Gülməyib gözlərim, gülməyib üzüm,
Taqətsiz qalmışam bükülüb dizim.
Silinib, qəlbində qalmayıb izim,
Küsüb eşq bağında solan olmuşam.

Yığılmaz sökülən könül sarayım,
Ucalar göylərə qüssəm, harayım,
Mən kimi itirim, kimi arayım?
Axı öz içimdə talan olmuşam.

## SƏBƏBİ KORONA DEYİL

Kimə deyim ürəyimin dərdini?
Kim anlayar kim duyar ki de məni?
Bu karona viran qoyub aləmi?
Guya hər şey düzələcəkmi yəni?

Biz bayramın unutmuşuq dadını,
Bizə bayram çörəyin bol vaxtıdı.
Yada salmır doğmaları, yadını,
Bu taleyin deyəsən kor baxtıdı.

Mən dərdimi sətirlərə düzmüşəm,
Millət baxıb koronaya bağlayır.
Daha necə üsyan edim görəsən,
Neçə evdə analar qan ağlayır.

## SUSUR SEVGİ

Üzür ayrılıqlar....
sənin kimi məni də üzür,
ipə-sapa yatmayan bu sevgimizi,
Düzür...
xatirələr sətir-sətir,
həsrət qoxan vərəqlərə düzür.
Küsür bəzən
elə səndən də...
məndən də küsür sevgi.
Süzür küsgün baxışları
gizli-gizli...
Susur sevgi
Danışmağa sonsuz səbəbi varkən,
Susur....
səsizliyi dəli edir insanı.
O isə sadəcə susur.

## NECƏ YUMUM GÖZÜMÜ

Ulduz olmaq istəyirəm səmada...
Bir az baxım göydən yerə.
Aya-ulduza yaxın olum,
Yerə düşməyim bir kərə.
Mən torpağı sevmirəm,
onun gözü doymur heç.
Hər gün nə qədər insan,
yaşlı, körpə, ya cavan,
fərqi yoxdur onunçün,
açgözlüklə, doymadan,
qəbir boyda ağzını
açıb udur bu torpaq.
Yox, ölümdən qorxmuram,
özüm ölsəm nə var ki....
Dözə bilmir bu qəlbim,
anaların ahına...

Bir gör nə qədər insan
göz yümür günahına.
Yağış yağmır torpağa,
göz yaşıyla sulanır.
Daha axar çaylar da,
qanlar ilə bulanır.
Mən düşməyim qoy yerə,
Yerdə həyat yoxdur ki...
İlahi, bu qədər dərd
bir ürəyə çoxdur ki.
Ya da, yox istəmirəm,
Yerdən göyə qaçmağı.
Onsuz yenə görəcəm,
bu amansız sərt çağı.
Hara gedim, İlahi,
Hara tutum üzümü?
Bu qədər dərd-bəlaya,
necə yumum gözümü?

## BAKI KÜLƏYİ

Sən, ey Bakı küləyi,
əs, toxun tellərimə.
Toxun, sığalla məni.
Bir az daha yaxın gəl,
doğma hiss edim səni.
Qoxun belə başqadır....
Kiminə həsrət,
kiminə məhəbbət qoxursan.
Kiminə təsəllisən,
kimini yaman yaxırsan.
Yenə səsli-küylüsən,
əsəbin çox yamanmış.
Sənin kükrəməyin də
günahsız can alanmış.
Sən necə yaraşırsan
bu qədimi şəhərə.
Alışmışıq səninlə,
biz göz açaq səhərə.

## BALA, KƏNDƏ QAYITMA

Bala kəndə qayıtma
Qayıtma bu millətə.
Öz elimdə-obamda,
Yad biriyəm dövlətə.

Hansı evə gələcən?
Küçələrdə qalmışıq.
Nahaq yerə ümidi,
Biz dövlətə salmışıq.

Nə bir maraqlanan var
Nə yeyib, nə içirik.
Nə halımı görən var
Qış günü nə çəkirik.

Geri dönmə, ay bala,
Vətən həsrəti keçər.
Vallah, geri qayıtsan
Qara gün səni seçər.

## QADIN İSTƏRSƏ...

Qadın elə qüvvədir ki...
Tək baxışına
açar bütün çiçəklər.
O gülərsə, günəş də nur çiləyər.

Qadın elə qüvvədir ki, ....
İstəsə cəhənnəmdə
cənnəti yaşadar sənə.
Bir tək sevgi dolu baxışı belə,
səni xoşbəxt etməyə yetər.

Qadın istəsə, özünü də,
səni də xoşbəxt edər.
Qadın istəsə qalar,
istəsə gedər....
Amma qalarsa,
həyatın onunla gözəlləşər.
Gedərsə....
Hər şeyi aparıb gedər
səndən xəbərsiz.
Gözlərindəki nuru...
Dodaqlarının təbəssümünü,
hətta qəlbinin sevgisini belə.

Qadın istərsə unudar səni...
Elə silər ki,
varlığına belə şübhə edərsən.
Amma istərsə yaddaşına elə girər...
Ağlına, fikrinə,
duyğularına elə sahib olar ki,
Onsuz nəfəs belə ala bilmərsən.